# Tofiq Mahmud

# Yasəmənim

MƏCBURİ NÜSXƏ
№

ŞEİRLƏR, MƏNZUM NAĞILLAR VƏ POEMALAR

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
104064

3 alma

## TOFİQ MAHMUDUN UŞAQ DÜNYASI

İnsanlıq var olduğu zamanlardan yaşam mühitində, cəmiyyətdə davranış və rəftarını nizamlayan qayda və normalar, əxlaq və ədəb ölçülərini yaratmışdır. Bu bütün xalqların həm şifahi, həm də yazılı ədəbiyyatında müxtəlif milli təfəkkürün əksi kimi inkişaf etmişdir. İnsanın insan kimi formalaşmasında tarix boyu ən müdrik tərbiyəçi şifahi xalq yaradıcılığı olmuşdur. Azərbaycan xalqının laylaları, oxşamaları, atalar sözləri, əmək nəğmələri, nağıl və dastanları insan övladını beşikdən tərbiyə ilə böyüdüb xalq arasında layiqli, cəmiyyətə yararlı insan kimi formalaşdırmışdır. Sonralar yaranan yazılı ədəbiyyatda da öz əksini tapan ədəb normaları insanın mənəvi zənginliyini ənənələr əsasında qoruyub saxlamış və inkişaf etdirmişdir.

Cəmiyyətin bütün formalarında hər hansı bir xalq özünəməxsusluğunu məhz mənəvi dəyərlərini nəsillərə ötürmə yolu ilə yaşada bilmişdir.

Azərbaycan yazılı ədəbiyyatında, hətta şifahi ədəbiyyatın yazılı nümunəsi “Kitabi Dədə Qorqud” dastanlarından bu yana övladlarımızı dəyərli mənəvi keyfiyyətlərlə yaşatmaq məqsədini görür və tarix boyu bu yüksək əxlaqın təsdiqini izləyə bilirik.

Mənəvi köklərini şifahi xalq yaradıcılığından alan klassik uşaq ədəbiyyatının nümunələrinə N.Gəncəvinin, M.Füzulinin, Q.Zakirin, S.Ə.Şirvaninin,

M.Ə.Sabirin, A.Şaiqin və başqalarının əsərlərində də rast gəlirik. Lakin uşaq ədəbiyyatının məqsədli şəkildə inkişafına vüsət verildiyi zamanların (XX əsrin ikinci yarısı) X.Əlibəyli, İ.Tapdıq, T.Elçin, Z.Xəlil kimi uşaq yazarları sırasında Tofiq Mahmudun xüsusi yeri olmuşdur.

Azərbaycan uşaq ədəbiyyatının, uşaq mətbuatının inkişafında Tofiq Mahmudun xidmətləri əvəzsizdir. O, Azərbaycan Mədəniyyət Nazirliyində, "Azərbaycan müəllimi" qəzetində, "Göyərçin" jurnalında çalışmış, Azərbaycan Yazıçılar Birliyi Uşaq və gənclər ədəbiyyatı şurasının sədri, SSRİ Yazıçılar İttifaqı uşaq və gənclər ədəbiyyatı şurasının üzvü, Azərbaycan Respublikası Uşaq Fondunun rəyasət heyətinin üzvü, həmin fondun Bakı şöbəsinin sədri vəzifələrində canıyananlıqla fəaliyyət göstərmişdir. Qazaxıstanda, Özbəkistanda, Belorusda nəşr olunan Azərbaycan uşaq ədəbiyyatı antologiyaları Tofiq Mahmudun adına bağlıdır. Ömrünün sonuna qədər rəhbərlik etdiyi "Göyərçin" jurnalında uşaqların, gənclərin təlim-tərbiyəsinə həssas münasibət bəsləyən şair, publisist, yazıçı Tofiq Mahmudun öz əsərlərində də sevgi, həyat eşqi, gözəllik, vətənpərvərlik duyğuları sonsuzdur. Bu, təsadüfi deyildi, çünki onun özü son dərəcə işıqlı, nurlu, kövrək, uşaq kimi təmiz insan olmuşdur. Şairi tanıyanlar onun haqqında çox hörmət və ehtiramla danışır, "çox abırlı adam"dır deyə xarakterizə edirdilər.



Günəşlə bir olanda
Ölüm də düşmür yada.
İşıqlı dünyalarla
Yaşayıram dünyada.

Bu misralar onun dünyasını səciyyələndirmək üçün əsas verir. İstər şeirlərində, istərsə də hekayə və povestlərində bu işıqlı ömrün amal və məramını görmək çətin deyildir. Uşaqlar və gənclər üçün yazdığı "Yola çıxıram", "Dibçək", "Buzovna qayaları", "Açıqdır pəncərəm", "Alpinistlər", "Meşədə səs", "Ana qucağı", "Qızımın sualları", "Dalğalar", "Ulduzlar", "Düşüncələr", "Kəpənək gözəlliyi", "Bu işıqla qalacağam", "Məhəbbətim sirr deyil", "Şən şeirlər", "Yağış yağır dənizə", "Gecə qapı döyülür", "Uzaqda ucalan dağlar" və s. kitablarında qələmə aldığı mövzular uşaqların və gənclərin həyatlarındakı önəmli anlar, ibrətamiz hadisələrlə bağlıdır.

Tofiq Mahmud ədəbi aləmdə "Yola çıxıram" (1959) adlı ilk kitabı ilə tanınmışdır. Bu kitabdakı şeirlər onun ədəbiyyat, sənət yoluna atdığı addımların məsuliyyətini dərk edərək bu yola çıxdığını bildirirdi. O zaman "Azərbaycan müəllimi" qəzetinin müxbiri kimi rayonlara, kəndlərə ezamiyyətə gedir, məktəblərdə uşaqlarla, onların həyat tərzi, dünyası ilə tanış olurdu. Uşaqlar üçün yazdığı "Utancaq oğlan" və "Dibçək" adlı kitabları da o zaman yazmışdı. 1961-ci ildən "Göyərçin" jurnalında başlayan fəaliyyəti ilə o, uşaq ədəbiyyatına sıx bağlanmışdır.

Tofiq Mahmudun uşaqlar üçün yazdığı ilk irihəcmli əsəri "Alpinistlər" poemasıdır. Məktəblilərin həyatından bəhs etdiyi həmin əsərdə şair uşaqların vətən torpağına, onun gözəlliyinə heyrət və məhəbbətini qələmə almış, dağların zirvəsinə qalxan, təbiəti, tarixi abidələri öyrənən uşaqların əhvali-ruhiyyəsini canlandırmağa çalışmışdır.

Tofiq Mahmud Azərbaycan təbiətinin vurğunu olan "Bu torpağı tanı sən" adlı silsilə şeirlərində "Abşeron sahilləri", "Sehrli meşəbəyi" və s. poemalarında da kiçik qəhrəmanlarına vətənin tarixini, gözəlliklərini sevdirməklə yanaşı, onlarda təbiətə məftunluq, minnətdarlıq hissləri, duyğuları oyadır, hər bir gözəlliyin qədrini bilib onu qorumağı öyrədirdi.

**Hicran Nəsibova**
filologiya üzrə fəlsəfə doktoru